

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 45 (20.946)

*8 mart 2014-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də paytaxt Bakıda inşası davam etdirilən bir sıra yol qovşaqlarında və yol ötürücülərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Prezident İlham Əliyev əvvəlcə paytaxtın Ziya Bünyadov prospektinin Müzəffər Nərimanov küçəsi ilə kəsişməsində yol ötürücüsünün tikintisi ilə tanış oldu.

* * *

Sonra Prezident İlham Əliyev Ziya Bünyadov prospektinin Əhməd Rəcəbli küçəsi ilə kəsişməsində inşa olunan müxtəlifsəviyyəli yol qovşağının yerləşdiyi əraziyə gəldi.

Burada görülən işlər barədə də dövlətimizin başçısına məlumat verildi.

* * *

Daha sonra Prezident İlham Əliyev Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Ali Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində – "Xutor" dairəsində inşa olunan müxtəlif səviyyəli yol qovşağında tikinti işlərinin gedişi ilə tanış oldu.

Yol qovşağının texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verildi. Qovşaqda üç tunel, bir körpü, iki yeraltı piyada keçidinin inşa olunduğu qeyd edildi.

İnşaat işlərinin gedişi ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq göstərişlərini verdi.



## Naxçıvanda Beynəlxalq Qadınlar Günü qeyd edilib





Dünən 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında bayram tədbiri keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə teatrın foyesində istedadlı qadınların əl işlərindən ibarət sərgiyə baxmışlar.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda qadınlara göstərilən diqqət və qayğıdan danışmışlar.

Qeyd olunmuşdur ki, Azərbaycan qadınları yüz illərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar. Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər. Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və bu gün də uğurla həyata keçirilən dövlət qadın siyasəti ictimai-siyasi həyatda qadınlarımızın rolunu daha da artırmışdır. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınların iştirakı təmin olunmasın. Məhz həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün muxtar respublikamızda qadınlarımız müxtəlif dövlət orqanlarında çalışırlar.

Bayram tədbirində "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 mart 2014-cü il tarixli Sərəncamı ilə mükafatlandırılan qadınlara "Rəşadətli əməyə görə" nişanları təqdim edilmişdir.

Təltif olunanlar əməklərinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlıqlarını bildirmişlər.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən qadınlara diplomlar və hədiyyələr verilmişdir.

Sonda Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorlarının ifasında İslam Səfərlinin "Göz həkimi" tamaşasının nümayişi olmuşdur.

Qeyd edək ki, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə muxtar respublikamızın bütün rayonlarında tədbirlər keçirilmiş, qadınlara hədiyyələr verilmişdir.

## İqtisadi İnkişaf Nazirliyində təqdimetmə mərasimi keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyində bir qrup sahibkara "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanının təqdim edilməsi mərasimi keçirilmişdir. Mərasimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf naziri Famil Seyidov açaraq "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 mart 2014-cü il tarixli Sərəncamını tədbir iştirakçılarının diqqətinə çatdırmış, nişanları sahiblərinə təqdim etmişdir.

Sonra 2013-cü ildə muxtar respublikanın sosial-iqtisadi inkişafında fərqlənən sahibkarlara "Biznesdə Uğur-2013" mükafatının nominasiyaları üzrə qiymətli hədiyyələr təqdim edilmişdir. "İlin şirkəti" nominasiyası üzrə "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti, "İlin sahibkarı" nominasiyası üzrə fiziki şəxs, süd emalı və xama istehsalı ilə məşğul olan sahibkar Camaləddin Məmmədov, "İlin ixracatçısı" nominasiyası üzrə "Badamlı" mineral suyunun ixracına görə "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti, "İlin məhsulu" nominasiyası üzrə isə fiziki şəxs, meyvə və tərəvəzqurutma istehsalı ilə məşğul olan İntiqam Hüseynov mükafatlandırılmışlar.

Qeyd edək ki, 2008-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən, muxtar respublikanın sosial-iqtisadi inkişafında fərqlənən, mütərəqqi istehsal sahələrinin yaradılmasında, beynəlxalq standartlara cavab verən ixracyönümlü məhsul istehsalında, investisiyaların təşviqində, istehlakçıların tələbatının daha dolğun ödənilməsində və idxaldan asılılığın azaldılmasında fərqlənən sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə "Biznesdə Uğur" mükafatı təsis edilmişdir. Hər il fərqlənən sahibkarlıq subyektləri müxtəlif nominasiyalar üzrə təltif olunurlar.

Təltif olunanlar əməklərinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirmişlər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf naziri Famil Seyidov yekun vurmuşdur.

*Culfa rayonunda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı zamanı qanunvericiliyin tələblərinə əməl edilməsi" mövzusunda tədbir keçirilib.*

## Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı məsələləri müzakirə olunub

Tədbiri giriş sözü ilə Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev açaraq rayonda inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin fəaliyyət istiqamətlərindən danışıb, onlara yaradılan şəraitin müqabilində nümunəvi iş tələb olunduğunu deyib.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev çıxış edərək bildirib ki, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılmasının qanunvericiliyin tələblərinə uyğunluğunu öyrənmək məqsədilə mütəmadi olaraq nazirlik tərəfindən rayon icra hakimiyyətləri ilə birlikdə yoxlamalar həyata keçirilib, keçirilən yoxlamalar zamanı aşkar olunan nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb, rayon icra hakimiyyətləri bu barədə məlumatlandırılıblar. Culfa rayonundakı inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən doğumun, nikahın və ölümün qeydiyyatı aparılır ki, əməliyyatlar 20 inzibati ərazi dairəsi üzrə nümayəndəlik tərəfindən rəsmiləşdirilir. 2009-2013-cü illər ərzində Culfa rayonunun icra nümayəndəlikləri tərəfindən doğum, nikah və ölümün qeydiyyatı ilə bağlı 3103 əməliyyat aparılıb. Onlardan 591 əməliyyat 2013-cü ilin payına düşüb. Hüquqi maarifləndirmə tədbirləri olaraq 2009-2013-cü illər ərzində Culfa rayonunun icra nümayəndələri üçün 14 dəfə seminar təşkil olunub. Nazirlik tərəfindən bütün icra nümayəndələri müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin ediliblər. Culfa rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 10 dəfə yoxlama keçirilib, aşkar olunan nöqsanların aradan qaldırılması üçün metodik köməklik göstərilib. Lakin bütün bu görülən işlərə baxmayaraq, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki nöqsanlar qalmaqdadır.

Vurğulanıb ki, Camaldın, Bənəniyar və Xanəgah kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin bu sahədəki fəaliyyətində nöqsanlara yol verilib. Bu nöqsanların aradan qaldırılması və bir daha təkrar edilməməsi üçün Qeydiyyat Şöbəsinin rəisi icra nümayəndələri ilə bağlı işini qanunvericiliyin tələbləri səviyyəsində təşkil etməli, hər bir icra nümayəndəsi işinə məsuliyyətlə yanaşmalı, qeyd olunan nöqsanlardan nəticə çıxarmalı və fəaliyyətində dönüş yaratmalıdır. Bununla yanaşı, son yoxlamalar göstərib ki, fəaliyyətləri qənaətbəxş sayılan Ərəfsə, Yaycı və Gülüstan kimi inzibati ərazi dairəsi üzrə nümayəndəliklər də vardır.

İclasa Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

## Vahid Miqrasiya Məlumat Sistemi təkmilləşdirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mehmanxanalarda yaradılmış Vahid Miqrasiya Məlumat Sisteminin mehmanxana modulu istifadəçiləri üçün maarifləndirici tədbir keçirilib.*

Tədbirdə xidmətin əməkdaşlarından Əfqan Əliyevin, İlqar Seyidovun, Aysel Əliyevanın, Zakir Məmmədovun çıxışları olub. Çıxışlarda Azərbaycan Respublikasında 3 gündən artıq müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə, eləcə də mehmanxanalarda yerləşmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatlarının aparılması, Vahid Miqrasiya Məlumat Sistemi ilə inteqrasiya edilmiş mehmanxana modulu vasitəsilə məlumat mübadiləsinin həyata keçirilməsi qaydaları haqqında tədbir iştirakçılarına məlumat verilib. Bundan başqa, tədbirdə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması işində qeydiyyat prosedurlarının icrası zamanı yol verilən nöqsanlardan və həmin nöqsanların səbəb olduğu problemlərdən, bu sahədə mehmanxana əməkdaşlarının məsuliyyətindən danışılıb.

Vurğulanıb ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış



sahəsi vermiş şəxslər miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmalarına görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətlərə cəlb edilirlər.

Tədbirin sonunda mehmanxana modulu vasitəsilə məlumat mübadiləsinin həyata keçirilməsi qaydaları haqda slayd nümayiş etdirilib.

Jurnalistin qeydləri

# Dağların qoşa qanadı



Boyəhməd kəndindən görünüş

Naxçıvandan Boyəhməd kəndinə bir yol çəkilib ki, tez-tez işlətdiyimiz və çoxumuzun mənasını bilmədiyimiz "Avropa standartları" bu yolun qabaq-qənşərində heç bir çürük qoz da deyil. Adını çəkdiyim bu kənd, yəni Boyəhməd kəndi dəniz səviyyəsindən nə az, nə çox, 2500 metrdən də artıq yüksəklikdədir. Əlbəttə ki, bu, kənd camaatının ev-eşik, od-ocaq qurduğu yerin hündürlüyüdür, yoxsa ki, Boyəhmədi dövrələyən Göydağın, Yol yurdunun, Yelli yurdun və ondan o yankı, hələlik, ağ örpəyə bürünmüş, zirvələri buludlardan nəm çəkən o biri dağların yüksəkliyini kim hesablayıb? Bunu qoyuram bir qırağa və qayıdıram yol məsələsinə. Qoy möhtərəm oxucu məni təkrarçılıqla qınamasın, o mənada ki, mən bütün yazılarımda bu yol məsələsini önə çəkirəm. Çünki biz yaşlı nəslin insanları Naxçıvanda abad, rahat yol görməmişdik. Amma Naxçıvan şəhərindən Culfa rayonunun bu istiqamətindəki sonuncu kəndi olan Boyəhmədəqədərki 62 kilometrlik yolun bu gözəlliyini görəndə Tanrıya min şükür elədim. Hər dolayda, hər döngədə bir mənzərə, bir füsunkarlıq və ağlıma gətirdim ki, gec-tez Naxçıvan dünyanın ən sayılıb-seçilən turizm mərkəzlərindən biri olacaq.

Son 18 ildə muxtar respublikada nə qədər məktəb tikilib, nə qədər kənd və xidmət mərkəzləri yaradılıb, nə qədər yol çəkilib, nə qədər abadlıq, səliqə-sahman işləri görülüb – hamısı göz qabağındadır və bunları da yazıma əlavə etməklə oxucunu yormaq fikrim yoxdur. Çünki bu barədəki məlumatlar vaxtaşırı qəzetimizdə dərc olunur. Odur ki, keçirəm mətləbə, yəni sözümün canına.

Boyəhməddə həyətində içməli və suvarma suyu olmayan ailə yoxdur: bir boru ilə bulaq suyu gəlir, bir boru ilə də çay suyu və əslində, elə bu çay suyu da bulaq suyudur. Boyəhməddə məktəbin, kənd və xidmət mərkəzlərinin açılış mərasimi idi və onu da qeyd edim ki, belə mərasimlərdə muxtar respublikanın rəhbəri hökmən iştirak edir, öz xeyir-duasını verir, sakinlərin problemləri ilə maraqlanır.

Və həmin görüşdə boyəhmədlilər bir istəklərini də bildirdilər. Yəni dərin dərənin dibindən axan çaydan bir qol da kəndə çıxarılsın – həyət-bağçalarını, bostan-tərəvəzlərini, ağac-budaqlarını suvarmaq üçün. Ola bilərmi ki, az qala göyün üzündə yaşayan bu dağ kəndinin sakini meyvə-tərəvəz üçün şəhərə üz tutsun? Elə ertəsi gün kəndə bu sahənin – su ilə təminat sahəsini deyirəm – mütəxəssisləri gəldilər. Dərələri, təpələri çox ölçüb-biçdilər. Suyun haradan və necə gətiriləcəyini müəyyənləşdirdilər, qısa müddətdə hər şey yol-yolağasına düşdü. Əyri-dolay dağ yolları ilə kəndə texnika gətirildi, borular daşındı, qaynaq işləri aparıldı, drenajlar qazıldı, xülasə, boyəhmədlilərin suvarma suyu istəyi, arzusu qısa müddətdə çin oldu.

Əlbəttə, bunları sözdə demək asandır, amma, təxminən, 3 kilometrə yaxın məsafədən, həm də dağlardan, dərələrdən boru ilə su çəkib gətirmək nə qədər material, vəsait, texnika, işçi qüvvəsi tələb edir. Təki dağ kəndi insanlarının bütün rahatlıqları təmin olunsun.

Muxtar respublika Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən mənə verilən qısa məlumat (olduğu kimi): Culfa rayonunun Boyəhməd kəndi Əlincə çayı mənbəyində yerləşməsinə baxmayaraq, suvarma və içməli sudan həmişə əziyyət çəkirdi... Buna görə də yeni su xətti çəkildi. Uzunluğu 2,3 kilometr olan bu su xəttinin çəkilişi diametri 250 millimetrlik boru ilə həyata keçirildi. Bununla bərabər, suyun kənddə töküldüyü yerdə həcmi 2 ton olan bölücü su çəni də quraşdırıldı. Su sərfi saniyədə 8-10 litr olan bu xətt artıq Boyəhməd kəndinin suvarma suyuna olan tələbatını ödəyir.

Bu da mənim əlavəm: əgər 46 evlik Boyəhməd kəndinin həyətlərinə saniyədə 8-10 litr su tökülürsə, daha nə istəyirsən?

Boyəhməd barədə kiçik bir arayış. Dedim ki, Naxçıvan şəhərindən 62 kilometr məsafədə yerləşir bu kənd. Bu istiqamətdəki sonuncu kəndimizdir. Kənddə 46 ev var, amma evlərin sayı ilbəil artmaqdadır. Nədənki yeni ailələr qurulur, dağ döşlərində, el dili ilə desək, yeni çıraqlar yanır. Elə bu səbəbdəndir ki, dedilər, 46 ev olsa da, 66 təsərrüfat var. Yəni sağlıq olsun, Boyəhməddəki evlərin sayı 66-ya çatacaq.

Boyəhmədin ərazisi 1340 hektardır, əlbəttə ki, evlər, həyətlər də bura daxildir. Əhalisi 337 nəfərdir və bunların 190 nəfəri seçicidir. Yəni 18 yaşından yuxarıdır. Bu 190 nəfərin 67 nəfəri Yeni Azərbaycan Partiyasının üzvüdür, bunun üstünə iki kəndi birləşdirən Ləkətağ inzibati ərazi dairəsi üzrə nümayəndəliyindəki daha 86 nəfəri də gəlsək, iki dağ kəndindəki insanların Azərbaycan dövlətçiliyinə olan inamını, etibarını aydın görmək olar.

Qayıdıram yenə Boyəhmədə. Ondan yana ki, oxucu da görsün, bu adamlar necə yaşayırlar, necə dolanırlar. Boyəhmədli Nəsrəddin Quliyevin 16 mal-qarası, 60 qoyun-keçisi, yanında ondan da çox balaları, 40 arı ailəsi, geniş meyvə bağı var – bunlar göydən düşməyib, zəhmət bahasına başa gəlib, torpaqdan, işdən-gücdən yapışmaq hesabına başa gəlib. Firyəddin Hacıyevin də 10 inəyi (balaları yanında), 60 qoyunu (balaları yanında), 50 arı ailəsi, bağı-bağçası var. Bu siyahıya Kamran Əliyevi də qoşuram, hələ qoşmadığım neçələri də var. Və üst-üstə gələndə Boyəhməddəki 46 evdən hər səhər örüşə 305 baş mal-qara, 2550 baş qoyun-quzu çıxır, həyətlərdə 1500-dən çox quş saxlanılır, bu gün-sabah kəndi dövrələyən dağların döşlərinə 500-dən çox arı yeşikləri düzüləcək. Dağlar qoynunda məskən salan boyəhmədlinin təbii qazdan, elektrik enerjisindən, nəqliyyatdan (özlərinin 15-dən çox avtomaşını var), sudan, rabitə xidmətindən bir zərrə də korluğu yoxdur.

***Kiçik bir haşiyə.*** Şəhər adamı gərək burada bir-iki gün qalsın ki, yüksəkliyə alışsın: azacıq başım ağrıdı. Və apteki, yəni əczaxananı xəbər aldım. Ətrafımdakılar mat-mat üzümə baxdılar. Bu qonaq nə danışır? Və sonradan mənə anlatdılar ki, boyəhmədlilər aptek-filan tanımırlar, həndəvərdəki dağlar, bitib-tükənməyən nəhəng əczaxanadır. Hansı otu, hansı gülü-çiçəyi qoparsan, minbir dərdin dərmanıdır. Və elə bu səbəbdəndir ki, hər bir evdə torba-torba qurudulmuş şəfa otları, can məlhəmləri saxlanılır.

Dedim axı, ərazi inzibati dairəsi üzrə nümayəndəlik iki kəndi birləşdirir – Ləkətağ və Boyəhməd. Ləkətağ nisbətən böyükdür. Həm ərazisi genişdir, həm də camaatı çoxdur. Ləkətağla Boyəhmədin arasında, təxminən, 5 kilometrlik məsafə var. Yəni Ləkətağ bir qədər aşağıdadır, dəniz səviyyəsindən də 2350 metr hündürlükdədir. Elə bu səbəbdəndir ki, buranın da əhalisi dövlətdən gəlirinin 20 faizi qədərində əlavə yardım alır. Yardım dedim, ünvanlı sosial yardım deyilən dövlət köməyi yadıma düşdü. Və soruşdum ki, Ləkətağda belə bir köməyə ehtiyacı olan var? Dedilər, Allaha şükür, əlimizə-ayağımıza nə gəlib? Bu dağlar, dərələr ki görürsən, hər qarışı sərvətdir. Bu gün-sabah qar əriyənə bənddir, dörd tərəf gül-çiçəyə bürünəcək, çaşır, baldırğan, bolu, ələyəz, min cür şəfa otları bitəcək – yığıb-yığışdırana minnət. Bir də ki, 1093 hektar torpağın ola, özün də dövlətin yardımına göz dikəsən?



Ləkətağ kəndindən görünüş

***Daha bir kiçik haşiyə.*** Ləkətağlı Sehrangül Quliyeva ilə görüşə bilmədim. Kənd yerində xeyir-şər işi olanda heç kəs kənarda qalmır. Amma evində oldum, qızı qarşıladı, anasının xalça emalatxanasını göstərdi. Emalatxana deyəndə ki, böyük otağın bir tərəfinə hana qoyulub, üstünə neçə rəngli iplər düzülüb; yanında da təzə başladığı xalçanın eskizi olan kağız.

Sehrangül Quliyeva rayon Məşğulluq Mərkəzi ilə müqavilə bağlayıb. İdarə ona hana verib, ip verib, eskiz verib və deyib ki, Sehrangül xanım bir ay ərzində 1 metr 20 santimetr uzunluğunda, 80 santimetr enində, yəni 1 kvadratmetr xalça toxusun, 200 manatını alsın. Ev sahibəsinin geniş otaqlarına döşənmiş neçə cür dükan-bazardan alınmış xalçaların arasında Sehrangül xanımın da əlinin bəhrəsi olan və naxışları, ilmələri gözoxşayan xalçalar gözümə dəyirdi və bu xalçalar insan əlinin tumarından, təmasından uzaq olan fabrik xalçalarından qat-qat gözəl, qat-qat qiymətlidir.

Əlbəttə, Ləkətağ camaatı xalçaçılıqla güzəran sürmür. Kənddə hər kəsin öz iş-gücü var. 1995-ci ildə burada torpaq islahatı başa çatıb. Və adambaşına da yarım hektar torpaq payı düşüb. Demirəm ki, Ləkətağ torpağı Şərur torpağıdır, yainki Babək rayonunun aran kəndlərinin torpağıdır. Buralarda hər yan dağdərədir. Amma yenə torpaq mütəxəssisləri bölgü zamanı elə elədilər ki, paylanan torpaqlar kəndlinin karına gəlsin. Məsələ bir də orasındadır ki, dağ kəndində yaşayan hər kəs öz evinin qibləsini yaxşı bilir. Yəni dolanışıq hardadır, ruzi hardadır? Ona görə də ləkətağlılar maldarlığa, heyvandarlığa, quşçuluğa, xüsusilə də arıçılığa daha çox üstünlük verirlər. Kənddəki 72 evin 500 başdan çox qaramalı, 4400 baş xırdabuynuzlu heyvanı var. Sayıb-sadaladıqlarım ləkətağlıların öz əməyinin bəhrələridir.

Bəs dövlət bu vara nə əlavə edib?

Kənddə hamının evində qaz yanır. Daha 20 il bundan əvvəlki kimi baltasını, mişarını götürən ətrafdakı ağac-budağın amanını kəsmir. Daimi elektrik enerjisi, hər evdə telefon, gündə 4 dəfə Naxçıvan və Culfa şəhərlərinə işləyən marşrut avtobusu, hələ özlərinin 30-35 şəxsi maşınını demirəm. Kredit yolu ilə 10 nəfərə otbiçən maşın satılıb. Kənddə yeni məktəb, kənd və xidmət mərkəzləri tikilib, əvvəldə dediyim kimi, müasir yol çəkilib.

Kənddə 144 şagird yerlik məktəb binası istifadəyə verilib. Hələlik isə şagirdlərin sayı 59 nəfərdir. Və azlıqdan darılmağa dəyməz. Əgər ötən dərs ilində məktəbi 3 uşaq bitiribsə, bu dərs ilində birinci sinfə 9 uşaq qəbul olunub. Deməli, yeni qurulan ailələrin sayı da artıb. Və onu da deyim ki, məktəbi bitirənlərin 3-ü də ali məktəblərə daxil olub. Bu da müəllimlərin uğuru. Məktəbin direktor əvəzi Elsevər Cəfərov onlara yaradılan şəraitdən ağızdolusu danışır. Bildirir ki, yeni məktəbin 14 sinif otağı var, onlardan ikisi elektron lövhəlidir. Kimya, biologiya, fizika laboratoriyaları, şahmat otağı, idman zalı, bufet şagirdlərin xidmətindədir. Xülasə, dağ kəndində təkcə bu günün yox, gələcəyin məktəbi fəaliyyət göstərir.

Yazımın bu yerində dünəni xatırlamasaq, haqsızlıq olar. 78 yaşlı Eynalı Məmmədov yarım əsrdən çox Ləkətağda müəllimlik edib. Uşaqlara ilk dəfə qələm tutmağı, hərfləri yazmağı öyrədib. Zəhməti də hədər getməyib. Və bu zəhmət o illərdə çəkilib ki, kənd məktəbi yaman gündə idi. Sinif jurnalını yazmaq üçün belə, şərait yox idi; gətirib evdə yazırdılar. Göydən düşən yağış, əsən külək siniflərin içində idi, qar yağdı, məktəb bağlanırdı. Və Eynalı müəllim kəndin lap hündür yerindəki evinin eyvanından saray kimi, imarət kimi ucalan məktəbi göstərib, – "belə məktəbdə işləməyə nə var", – deyir.

***Rəvayət.*** Belə söyləyirlər ki, günlərin birində ata iki oğlunu yanına çağırıb onlara hər kənddə ev tikməyi məsləhət edir. Qardaşlar səhəri işə başlayırlar. Bir müddətdən sonra ata işin nə yerdə olduğunu soruşur. Qardaşın biri məlumat verir ki, filan kənddə ev tikmişəm, o biri kənddə imarət salmışam, o biri kənddə bağım var və sair və ilaxır. Ata o biri oğlundan soruşur, bəs sən nə tikmisən, nə qurmusan? Oğlu cavab verir ki, həmin kəndlərdə mənim çoxlu dostlarım var, onların evi elə mənim evimdir. Əlbəttə ki, bu, atanın ürəyindən olur.

**Ləkətağda, Boyəhməddə olarkən nə qədər insanla əl verib görüşdüm, hal-əhval tutdum, nə qədəri məni evinə qonaq dəvət etdi: Eynalı müəllim, Nizami, icra nümayəndəsi Balabəy, Elsevər müəllim, boyəhmədli Ədalət, adlarını xatırlaya bilmədiklərim qoy məni bağışlasınlar. Və mən onların hamısını özümə dost hesab edirəm. Nə böyük xoşbəxtlikdir dünyada çoxlu dostu olmaq!**

**Nurəddin BABAYEV**

***Azərbaycan Respublikasının əməkdar jurnalisti***

## "Naxçıvan Aqrolizinq" ASC yaz əkinlərinə tam hazırdır

Muxtar respublikanın əlverişli iqlim şəraiti, bərəkətli, münbit torpaqları, kənd təsərrüfatının inkişafına hərtərəfli dövlət qayğısının göstərilməsi mövcud torpaq potensialından səmərəli istifadə edilməsinə, həmçinin əkin dövriyyəsinin genişləndirilməsinə geniş imkanlar açmışdır. Təsərrüfat suyuna olan tələbatın ödənilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlərin və müasir kənd təsərrüfatı texnikalarının verilməsi, aqrotexniki xidmət sarıdan köməkliklərin göstərilməsi bu sahəyə olan dövlət qayğısının daha bir ifadəsidir. Təbii ki, əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsində, yetişdirilən məhsulun vaxtında və itkisiz toplanılmasında müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Bu baxımdan torpaq mülkiyyətçilərinin və fermerlərin kənd təsərrüfatı texnikaları ilə təmin olunması olduqca vacib məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti aqrar bölmənin kənd təsərrüfatı texnikaları ilə təchizatını, müxtəlif servis xidmətlərinin göstərilməsini, torpaq mülkiyyətçilərinə güzəştli qiymətlərlə mineral gübrələrin satışını həyata keçirir, cins mal-qaranın alınaraq muxtar respublikaya gətirilməsini və lizinq yolu ilə fermerlərə verilməsini təmin edir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xəttilə 125 ədədi 2014-cü ildə olmaqla, 1370 ədəd müxtəliftəyinatlı müasir kənd təsərrüfatı texnikaları və avadanlıqlar alınıb gətirilmişdir.

Ölkə başçısının "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı texnikalarının hüquqi və fiziki şəxslərə müddətli ödənişlə satılmasında güzəştlər tətbiq olunur. Belə ki, 2007-ci ilədək satılan kənd təsərrüfatı texnikaları dəyəri 5 il müddətinə ödənilib dəyərinin 120 faizi məbləğində girov qoyulmaqla satılırdısa, 2011-ci ilədək 10 il müddətinə və dəyərinin 20 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılmışdır. 2011-ci ilin yanvar ayından isə kənd təsərrüfatı texnikaları 10 il müddətinə və dəyərinin 10 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılır. Bu da, təbii ki, texnikaların hüquqi və fiziki şəxslər tərəfindən alınmasına əlverişli şərait yaratmış, 58 ədədi 2014-cü ildə olmaqla, lizinq yolu ilə 965 ədəd texnika satılmışdır. Lizinq yolu ilə satılmış texnikaların ödənişi vaxtında aparılmış, bu günə qədər heç bir borc qalığı qalmamışdır.

Mövcud texnika və texnoloji avadanlıqların saxlanılmasına və yüksəkkeyfiyyətli aqroservis xidmətinin göstərilməsinə əlverişli şərait yaradılmış, 2010-cu ildə "Naxçıvan Aqrolizinq" ASC və onun Şərur, Culfa, 2011-ci ildə Sədərək, Kəngərli, Ordubad, 2013-cü ildə isə Şahbuz bazalarında inzibati bina, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilmişdir. Hazırda "Naxçıvan Aqrolizinq" ASC-nin bazasında 126 ədəd müxtəlif texnika və avadanlıq vardır. Bunun 28 ədədi Şərur, 38 ədədi Babək, 23 ədədi Culfa, 7 ədədi Sədərək, 6 ədədi Ordubad, 12 ədədi Kəngərli, 12 ədədi isə Şahbuz bazalarına icarəyə verilmişdir. Cari ilin bol məhsulunun əsası ötən ilin payızında qoyulmuşdur. Yaz əkini kampaniyasına hazırlıq işləri diqqət mərkəzində saxlanılmış, texnikalara baxış keçirilmişdir. Ehtiyat hissələrinin alınıb gətirilməsi istiqamətində işlər davam etdirilir.

**✍ Kərəm HƏSƏNOV**

*8 Mart Beynəlxalq Qadınlar Günüdür*

# Muxtar respublika qadınları ictimai həyatda fəal iştirak edirlər

1910-cu ildə Kopenhagendə keçirilən beynəlxalq konfransda martın 8-i “Beynəlxalq Qadınlar Günü” kimi təsis edilmişdir. Bu bayram dünyanın bir sıra ölkələrində, o cümlədən 1917-ci ildən etibarən Azərbaycanda qeyd olunur.

Əsrlər boyu Azərbaycan qadını ictimai-siyasi həyatda fəal iştirak etmiş, cəmiyyətin aparıcı qüvvəsi kimi öz iradəsi, mərdliyi, saflığı və sədaqəti ilə seçilmişdir. Qadınlarımız min illərdən bəri formalaşmış milli dəyərlərimizə sadiq qalaraq ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar. Görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi müasir Azərbaycan xanımları öz dərin zəkaları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər. Artıq Azərbaycanın iqtisadi-siyasi, elmi-mədəni və ictimai həyatında qadınların yüksək intellektual təbəqəsi formalaşmışdır.

Müstəqillik qazandıqdan və ümummilli lider Heydər Əliyevin ölkəmizdə yenidən hakimiyyətə qayıdışından sonra qadınların ictimai-mədəni həyatda iştirakı əhəmiyyətli dərəcədə artmışdır. Bu dövrdə dövlət qadın siyasəti diqqət mərkəzində saxlanılmış, qadınların hüquq və vəzifələrinin qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında qadın hüquqları da öz əksini tapmış, dövlət quruculuğu prosesində onların iştirakına hüquqi zəmin yaradılmışdır. Əsas Qanunumuzun ikinci bölməsinin 25-ci maddəsində gender bərabərliyi konstitusion norma kimi öz əksini tapmışdır.

***“Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır”,*** – deyən ulu öndər Heydər Əliyevin fərman və sərəncamları ilə ölkəmiz “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında”, “Qadınların siyasi hüquqları haqqında”, “Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında” beynəlxalq konvensiyalara qoşulmuşdur. 1998-ci ildə ölkəmizdə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, həmin il Azərbaycan Qadınlarının Birinci Qurultayı keçirilmişdir. Ümummilli liderin 2000-ci il 6 mart tarixli “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Fərmanına əsasən isə qadınların rəhbər vəzifələrdə kişilərlə bərabər təmsil olunması ön plana çəkilmişdir. Bir sözlə, ümummilli lider Heydər Əliyevin istər sovet, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə qadınların problemlərinin həllinə hərtərəfli qayğı göstərməsi, onların ölkənin siyasi, iqtisadi, sosial və mədəni həyatında iştiraklarını təmin etməsi bu gün Azərbaycan qadınının qazandığı nailiyyətlərin əsas hərəkətverici qüvvəsi olmuşdur.

Ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət qadın siyasəti sahəsində mühüm tədbirlər görülür. Artıq Azərbaycan Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur və BMT-nin qadın məsələləri üzrə komissiyasının tamhüquqlu üzvüdür. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanına əsasən, Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, həmin il oktyabrın 10-da “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul olunması qadınların cəmiyyət həyatında fəal iştirakının təmin olunmasında, eləcə də onların hüquq və vəzifələrinin qorunmasında, sosial problemlərinin həllində mühüm əhəmiyyətə malik olmuşdur.

Dövlət başçısının hər il 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrik zərif cinsin nümayəndələrinə dövlət səviyyəsində göstərilən diqqət və ehtiramın daha bir ifadəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən il 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrikində demişdir: ***“Azərbaycan qadını mənəvi təbiətinə sadiq qalaraq, zərifliyin, ülviliyin və gözəlliyin rəmzi olan adının ucalığını həmişə layiqincə qoruyub saxlamışdır. Tarix boyu o, özünün müdrikliyi, işgüzarlığı və saflığı ilə keçmişimizə parlaq səhifələr yazmışdır. Milli-əxlaqi dəyərlərimiz, mədəni-tarixi irsimiz və xalq adət-ənənələri xəzinəmiz məhz dilimizin saflığı keşiyində şərəflə dayanan nənələrin, anaların sayəsində mürəkkəb dövrlərin təqib və sınaqlarına qalib gələrək bu günədək yaşamaqdadır. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib seçilmək hüququ əldə etməsi də, mədəniyyətin, incəsənətin və elmin müxtəlif sahələrində ilk addımları atması da Azərbaycan qadınının mədəni səviyyəsinin və intellektual potensialının aydın təzahürüdür. Fərəhləndirici haldır ki, gənc xanım və qızlarımız bu nailiyyətlərin layiqli davamçıları kimi nəsillərin varisliyini təmin edirlər”.***

Naxçıvan Muxtar Respublikasında qadınların ictimai-mədəni həyatda iştiraklarının təmin olunması diqqət mərkəzində saxlanılır. Artıq muxtar respublika qadınları cəmiyyət həyatında fəal iştirak edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması həm də muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının müdafiə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin daha bir göstəricisidir. Bu gün muxtar respublika əhalisinin 218 min 821 nəfəri qadınlardır. Bu qadınlardan 70 min 717 nəfəri 18 yaşadək olan, 148 min 104 nəfəri 18 yaşdan yuxarı, 2563 nəfəri qaçqın və məcburi köçkün, 7282 nəfəri sağlamlıq imkanı məhdud, 443 nəfəri xidmətdə olan ahıl, 159 nəfəri isə şəhid ailəsidir.

Muxtar respublikada yaşayan qadınlar sosial varlıq kimi hüquq və azadlıqlara, öz bilik və bacarıqlarını realizə etmək imkanlarına malikdirlər. Belə ki, müxtəlif peşə sahələrində çalışan qadınların sayı ilbəil artmaqdadır. Təhsil, səhiyyə, mədəniyyət sahələri ilə yanaşı, qadınlarımız həm də hüquq-mühafizə, məhkəmə və digər orqanlarda ləyaqətlə xidmət edir, elm və texniki sahələrdə fəaliyyət göstərirlər. Dövlət qadın siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir ki, qadınlarımız istər icra, istərsə də yerli özünüidarəetmə orqanlarında geniş təmsil olunur, yüksək və məsul vəzifələrə təyin olunurlar.

Dövlət qadın siyasətinin əsas istiqamətlərindən biri də qadınların ictimai fəallığını yüksəltməkdən ibarətdir. Bu məqsədlə muxtar respublikada qadınların cəmiyyətdəki mövqeyi və onların hüquqlarının qorunması ilə bağlı mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Ahıl, tənha, xüsusi qayğıya ehtiyacı olan qadınların həyat şəraitlərinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirlər görülür, onların məişət və sosial problemləri həll olunur. Bununla yanaşı, muxtar respublikada müasir təhsil müəssisələrinin, tibb ocaqlarının istifadəyə verilməsi qadınların hərtərəfli təhsil almasına, eləcə də sağlamlıqlarının qorunmasına hərtərəfli şərait yaratmışdır.

Muxtar respublikanın təhsil, səhiyyə, mədəniyyət, dövlət qulluğu və digər sahələrində səmərəli fəaliyyət göstərən qadınların əməyi daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Təkcə ötən il müxtəlif sahələrdə çalışan qadınlardan 2-si “Dövlət qulluğunda fərqlənməyə görə” medalı, 6-sı “Tərəqqi” medalı ilə təltif olunmuş, 3-ü Prezident mükafatına layiq görülmüş, 1 qadın “Azərbaycan Respublikasının əməkdar tibb işçisi”, 3 qadın “Azərbaycan Respublikasının əməkdar müəllimi”, 6-sı isə “Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi” fəxri adına layiq görülmüş, 1-i Naxçıvan Muxtar Respublikasının “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuş, 3 qadın “İlin ən yaxşı müəllimi” müsabiqəsinin qalibi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycanda qadın adının həmişə uca tutulduğunu, qadına böyük ehtiram göstərildiyini bildirərək demişdir: ***“Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır. Qədim rəvayət və dastanlarımızda müdrik və gözəl qadın obrazlarının bədii təsviri verilmişdir. Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik şair, hökmdar, döyüşçü qadınlar fəaliyyət göstərmiş, elm xadimləri olan qadınlarımız Azərbaycan elmini dünyaya tanıtmışlar. Eyni zamanda Azərbaycan qadını dünyaya böyük siyasət və dövlət xadimləri, əbədi şəxsiyyətləri, tanınmış elm və sənət adamlarını bəxş etmişdir. Bugünkü həyatımızın hər hansı bir hissəsini qadınlarsız təsəvvür etmək mümkün deyil”.***

2014-cü il Naxçıvanda “Muxtariyyət ili” elan olunmuşdur. Muxtar respublika qadınları bu il də ictimai-siyasi, sosial-iqtisadi, mədəni proseslərdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində yaxından iştirak edəcək, öz bilik və bacarıqlarını muxtar respublikanın inkişafına yönəldəcək, iqtisadi yüksəlişin təmin edilməsində fəallıq nümayiş etdirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*10 mart Milli Teatr Günüdür*

# Naxçıvan teatrı Şərqin qədim mədəniyyət ocaqlarındandır



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında “Milli Teatr Günü”nün təsis edilməsi haqqında” 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə “Milli Teatr Günü” kimi qeyd edilir.*

Teatr həyatda və cəmiyyətdə baş verən hadisələri görmək, duymaq və onları dərk etmək üçün qarşılıqlı münasibətlərin inikasını yaradır, burada real həyat hadisələri obrazların dili ilə tamaşaçıya çatdırılır. Bu mənada incəsənətin heç bir növü teatrla müqayisə edilə bilməz. Çünki söz sənəti, rəssamlıq, musiqi, rəqs və digər növlərin sintezindən yaranan tamaşa dramaturqun, rejissorun, rəssamın, bəstəkarın, aktyorun və digər sənət adamlarının birgə əməyinin bəhrəsidir.

Azərbaycanda teatr sənətinin, xalq teatrımızın tarixi çox qədimlərdən başlayır. Qobustan, Gəmiqaya rəsmləri bunu bir daha təsdiq edir. Həmçinin Azərbaycanda teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, dünyagörüşü ilə bağlıdır. Xalqımızın yaratdığı xalq oyunları, xalq komediyaları, meydan və qaravəlli tamaşaları, bayram məzhəkələri folklorumuzun bir parçası olmaqla yanaşı, həm də teatr sənətimizin ilk nümunələridir. Qədim tarixə malik “Sayaçı”, “Novruz”, “Gəvsəç” kimi mərasimlərdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə, hərəkətə, bəzən isə bədii surətə də rast gəlinir. Xalqın yaradıcılıq təfəkkürünün imkanlarını göstərən, folklorumuzun zənginliyini ortaya qoyan bu tamaşalar peşəkar teatrın yaranmasına qədər böyük bir missiyanı yerinə yetirmişdir.

Əsası 1873-cü ilin mart ayında M.F.Axundovun “Lənkəran xanının vəziri” tamaşası ilə qoyulmuş Azərbaycan teatrı keşməkeşli inkişaf yolu keçmişdir. Milli teatrın yaradılmasında Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlovun xüsusi xidmətləri olmuşdur. Həmin dövrdə Azərbaycan ziyalıları teatrın inkişafında böyük fədakarlıq göstərmişlər. Azərbaycan dramaturgiyasının inkişafında son dərəcə mühüm rol oynayan, mədəni quruculuq sahəsində, eləcə də teatr sənətinin təşəkkülündə böyük xidmətlər göstərən ədəbiyyat və incəsənət xadimləri, aktyor və rejissorlar öz yaradıcılıqları ilə milli teatrın inkişafında, milli və dünya dramaturqlarının klassik irsinə düzgün münasibətin müəyyənləşməsində əvəzsiz xidmət göstərmişlər.

Teatra, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara, sözün əsl mənasında, hamilik edən ümummilli lider Heydər Əliyevin səyi və köməyi nəticəsində ötən əsrin 70-ci illərində milli teatr sənətimiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Ümummilli liderimiz Heydər Əliyev xalqımızın zəngin yaradıcılıq ənənələrinə malik olan teatr sənətinə yüksək qiymət verərək demişdir: ***“Xalq həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha güclüdür. Bunlar xalqa daim sənət və xüsusən incəsənət vasitəsilə aşılanmışdır. Ədəbiyyatın insanlara böyük təsiri vardır. Ancaq bir var ki, insan hər hansı bir əsəri özü oxusun, bir də var ki, onu canlı olaraq səhnədə görsün. Ona görə də teatrın həyatımızda rolu böyükdür. Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada çalışanlar fədakardırlar”.***

Mədəniyyət tariximizin parlaq səhifələrini şərəflə yazan milli teatrımız ulu öndərimizin yenidən siyasi hakimiyyətə qayıdışından sonra öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Teatrlara diqqət və qayğı artırılmış, aktyor və rejissorların səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Yaradıcılıq şəraitinin daha da yaxşılaşdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilmiş, teatr kollektivlərinin əməkhaqları dəfələrlə artırılmış, aktyorların, dramaturqların, rejissorların yubileyləri qeyd olunmuş, Azərbaycan teatrının beynəlxalq əlaqələri genişlənmişdir.

Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan teatrların diqqət və qayğı ilə əhatə olunması siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin də diqqət mərkəzindədir. Bu gün teatr binaları yenidən qurulur, təmir edilir, teatr sahəsində islahatlar həyata keçirilir. 2006-cı ildə qəbul olunmuş “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanunu bu sahənin qanunvericilik bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətli olmuşdur. Ölkə başçısının “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında” 2007-ci il 19 fevral tarixli Sərəncamı isə milli teatrımıza göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Sərəncamda milli mədəniyyətimizin inkişafında böyük rol oynayan teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq potensialının yaxşılaşdırılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. “Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı” da Azərbaycan teatrının maddi-texniki bazasının möhkəmləndirilməsi, rejissor və aktyorların yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından əhəmiyyətli olmuşdur.

Teatrlarımıza diqqət və qayğını muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında da aydın görmək mümkündür. Naxçıvanın mədəni həyatında mühüm rol oynayan teatrlarımız dövlət qayğısı ilə əhatə olunmuş, son 18 ildə muxtar respublikada teatr sənətinin davamlı inkişafının təmin edilməsi, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu gün muxtar respublikada Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə yanaşı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin tələbə teatr studiyası fəaliyyət göstərir.

2012-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olmaqla bərabər, həm də bu sənətə diqqət və qayğının real ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov teatr binasının istifadəyə verilməsi mərasimində kollektivin qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***“Bu gün istifadəyə verilən bina teatrın həyatında yeni dövrün başlanğıcıdır.***

*Ardı 4-cü səhifədə*

***Ona görə də kollektiv Yaxın Şərqin ən gözəl memarlıq abidələrindən biri olan teatr binasında bundan sonra da düşündürücü, dövrün tələbləri ilə səsləşən əsərlər səhnələşdirərək insanların mədəni səviyyəsinin yüksəldilməsinə xidmət etməli, teatrda yeni ənənələr başlamalı, teatr tamaşaçı hörməti qazanmalıdır".***

Müstəqillik illərində Naxçıvan teatrı yaradıcılıq axtarışları, həm də qastrol səfərləri ilə zəngin olmuşdur. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu illərdə Türkiyənin Ankara, İstanbul, Bursa, Ərzurum, İqdır, Dənizli, Tarsus, İran İslam Respublikasının Təbriz, Maku, Urmiya şəhərlərinə səfərlər etmiş, göstərdiyi tamaşalarla qonşu və dost ölkələrin sənətsevərlərinin rəğbətini qazanmışdır.

Müxtəlif vaxtlarda səhnəyə qoyulan "Topal Teymur", "İblis", "Səyavuş", "Dirilən adam", "Fərhad və Şirin", "Koroğlunun Çənlibelə qayıdışı", "Qönçəbəyim nəğməsi", "Mirzə Fətəli", "Ağa Məhəmməd şah Qacar" kimi uğurlu tamaşalar onu göstərir ki, Naxçıvan teatrının yaradıcılıq axtarışları ilbəil zənginləşir. 2012-ci il may ayının 26-da Respublika Günü ərəfəsində C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının və Naxçıvan Dövlət Filarmoniyasının Ü.Hacıbəylinin "Koroğlu" operasından birgə hazırladığı kompozisiya da muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olmuşdur.

Bu il də Naxçıvan teatrının kollektivi yeni tamaşalar üzərində işləyir. Belə ki, teatrda Həsənəli Eyvazlının Naxçıvanın muxtariyyət tarixinə həsr olunan "Araz sahilində doğan Günəş" əsəri, Norveç dramaturqu Henrik İbsenin "Kuklalar evi" dramı və şair-publisist Taleh Həmidin "Yəhya bəy və Dilqəm" pyesi səhnələşdiriləcəkdir.

Yaradılmasının 25 illiyini qeyd edən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı da yüksək qayğı ilə əhatə olunmuş, 2004-cü ildə yeni bina ilə təmin edilmişdir. Teatrın qonşu Türkiyəyə və İran İslam Respublikasına səfərləri ənənəyə çevrilməklə bu sahədə beynəlxalq əlaqələrin inkişafına təkan vermişdir. Kukla teatrı 2009-cu ildə Türkiyə Respublikasının Bursa şəhərində keçirilən 13-cü Uluslararası Qaragöz Kölgə və Kukla Oyunları Festivalında, 2010-cu ildə isə Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində keçirilən "Kuklaların fantaziyası" I Beynəlxalq Kukla Teatrları Festivalında iştirak etmiş və festivalların diplomlarına layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı Azərbaycanda fəaliyyət göstərən iki uşaq teatrından biridir.Teatr bu illər ərzində hazırladığı "Cəsur dovşan", "Yaxşılıq itmir", "Meşə əhvalatı", "Fəridin yuxusu", "İgidlik imtahanı", "Bu dünya bir nağıldır", "Ata məhəbbəti", "İki qardaş", "Daşdəmirin nağılı" və başqa tamaşalarla balaca tamaşaçıların qəlbinə yol tapmağı bacarmışdır. Həmçinin muxtar respublikanın xalq teatrları tərəfindən hazırlanmış "Solğun çiçəklər", "Ezop", "Beş manatlıq gəlin", "Rəhmə gəl, mələyim", "Məhəbbət nişanəsi", "Evlikən subay" və başqa tamaşalar da ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Son illər Naxçıvan teatrının tədqiqi ilə bağlı da mühüm işlər görülmüş, bir sıra monoqrafiya və kitablar nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan teatrının salnaməsi" bu baxımdan yüksək qiymətə layiqdir. Kitabda ilk dəfə olaraq Naxçıvan teatrı ilə bağlı çoxsaylı sənədlər, fotoşəkillər və digər məlumatlar öz əksini tapmışdır.

***Xalqımızın qədim və zəngin mədəniyyətini yaşatmaq, vətənpərvərlik duyğularını gücləndirmək, yüksək səviyyəli estetik-mənavi təsirə malik olan əsərləri səhnəyə gətirmək teatrlarımızın bu gün qarşısında duran əsas vəzifələrdir. "Muxtariyyət ili"ndə Naxçıvan teatrları dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət edən yüksək sənət əsərlərini səhnəyə gətirəcək, milli dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması, eləcə də tariximizin yaşadılması sahəsində şərəfli vəzifəni layiqincə yerinə yetirəcəklər.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

***8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində qəzetimiz üçün maraqlı müsahib seçmişdim: müxtəlif muzeyləri bəzəyən əl işlərinin sahibini oxucularımıza daha yaxından tanış etmək üçün. Bu xanım dekorativ-tətbiqi sənət növü olan ağac üzərinə naxışişləmə sənəti ilə məşğuldur. Məlumdur ki, bu sənətlə ən çox kişilər məşğul olurlar. Çünki sənətkarlara görə, bu sənət sahəsi bilək işidir, güc tələb edir. Azərbaycan qadınının həyat tərzi, kişilərdən heç də geri qalmaması bizə onlarla öyünmək haqqı verir. O bir əlində nənni yüyrüyü tutub, bir əlində qılınc kişilərlə bərabər yurd, torpaq qoruyub. Bir əli çörəkli, unlu olub, bir əli çöl işlərində, əkin-biçində olub. Döyüş meydanında ər kimi vuruşub, şəhid olub, əmək cəbhəsində hünər, qəhrəmanlıq göstərib. Zəkası, qüdrəti elmdə böyük kəşflərlə üzə çıxıb.***

## Ağaclar ən yaxın sirdaşımdır



Budur, Afət Əhmədovanın iş yerinin qarşısındayam. İçəri daxil olanda Afət xanım yeni əl işinin üzərində işləyirdi. Özümü təqdim etdikdən sonra ona işinə davam eləməsini xahiş etdim. Fikirləşirəm ki, ağac budağını və ya taxta parçasını yolda görəndə üstündən addımlayıb gedirik. Ancaq insanlar var ki, bu parçalar üzərində böyük sənət əsəri ərsəyə gətirirlər. Üzərində işləyəcəyi ağacı qarşısına qoyub uzun müddət baxır, onunla danışmağa, dil tapmağa çalışır. İşləyəndə də elə bil ağacı yonmur, oymur, incitmir, artıq-əskiyini nizamlayır, şəkildən-şəklə salır, gözəlləşdirir, daha yaraşıqlı, daha cazibəli biçimə salır.

Onu da qeyd edim ki, Azərbaycan xalqı özünün çoxəsrlik tarixi boyunca zəngin, özünəməxsus mədəniyyət yaratmışdır və bu mədəniyyətin inkişaf etmiş sahələrindən biri də dekorativ-tətbiqi sənətdir. Bu sənətlər qədimdən mövcuddur. Və özündə bədii sənətin müxtəlif növlərini birləşdirir. Bunlara misal olaraq döymə sənətini və zərgərliyi, metal üzərində işləmələri, ağac, daş və sümük üzərində oyma naxışı, xalçaçılığı, hörgünü, ornamental toxuculuq və basmanaxışı, toxuma, bədii tikmələr və bir çox digərlərini göstərə bilərik. Dekorativ-tətbiqi sənətə el arasında "xalq sənəti" də deyilir. Afət xanım da bu sənətin ağac üzərinə naxışsalma növünü yaşadır.

Afət xanım onu heyranlıqla izlədiyimi sezib deyir:

– Həyatda deyə bilmədiklərimi ağaclara deyirəm. Elə olur ki, kənardan gələn səsi də eşitmirəm. Mən bu işdə yorulanda da dincliyimi elə bu işdən alıram. Tamamladığım bir əsəri qarşıma qoyub beşcə dəqiqə ona baxanda bütün yorğunluğum çıxır. Bu iş mənim imzamdır. Ona nə qədər çox şey verə bilsən, alacağın da o qədər çox olur.

Şahbuz rayonunda anadan olan Afət xanım 1991-ci ildə Tibb Kollecinə daxil olur. Uzun müddət tibb bacısı kimi fəaliyyət göstərir. Tibb bacısı peşəsindən dekorativ-tətbiqi sənətə gedən yol daha çox diqqətimizi çəkir. *"Bəs necə oldu, bu sənətə yiyələndiniz?"* Afət xanımın dediklərindən:

– Uzun illərdir, xarici ölkədə yaşayırdıq. Yaxın qohumum Oqtay usta da ağac üzərində naxış işi ilə məşğuldur. Hazırda birgə çalışırıq. Bir gün iş başında Oqtay usta ayağından zədə aldı və uzun müddət işindən uzaq qaldı. Həmin vaxt Oqtay usta iş sifarişi almışdı. Onu vaxtında çatdırmalı idi. Uzun illər onun necə işlədiyini izləyirdim. Arada kömək də edirdim. Xəstə olduğu müddətdə həmin işi öz üzərimə götürüb başa çatdırdım.

Elə bu yerdə sözə qoşulan Oqtay usta deyir:

– Onda gözlərimə inanmamışdım. Çoxlu tələbələrim olub. Amma heç kəs Afət kimi olmayıb. Daim öz üzərində çalışır, gördüyü işi həvəslə yerinə yetirir. 8 ildir, birgə fəaliyyət göstəririk. Hətta bir sıra əl işlərimizi birgə ərsəyə gətiririk.

*– Afət xanım, necə oldu, yenidən Naxçıvana qayıtdınız?*

– Xarici ölkədə yaşasaq da, teztez Naxçıvana gəlirdik. Bir dəfə Novruz bayramı münasibətilə keçirilən tədbirdə əl işlərim sərgiləndi. Həmin gündən sənətimə böyük dəstək gördüm. Fikirləşdim, yad ölkədə bu işi niyə görməliyəm? Həmin dəstək və qayğını indiyə qədər daim öz üzərimdə hiss edirəm: bizə yer verildi, şərait yaradıldı, əl işlərimizin satışı təşkil olundu. Bir sənət adamı bundan artıq nə istəyə bilər? Bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olundum. İnanın, o qədər sevincliyəm ki, bu hisslərimi sözlə ifadə etməkdə çətinlik çəkirəm.

Afət xanım əlavə edir:

– Bütün bunlar məsuliyyətimi daha da artırır. Sahibkarlığa göstərilən qayğıdan bəhrələnərək fəaliyyətimizi daha da genişləndirməyi nəzərdə tutmuşuq. Çünki öyrənmək istəyən gənclər çoxdur. Onlara həvəslə bu sənəti öyrətmək istəyirəm. Özü də onu deyim ki, son illər bu sənətə maraq artır. Bizdən sonra gələcək nəsil bu sənəti yaşatmalıdır.

Divardan asılan diplomlar, sertifikatlar diqqətimizi çəkir. Öyrəndim ki, Afət xanımın əl işləri bir sıra xarici dövlətlərdə sərgilənib, yaradıcılıq mükafatları alıb. Ötən il Bakı şəhərində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində Müstəqil Dövlətlər Birliyi ölkələrinin iştirakı ilə keçirilmiş sərgidə sertifikata layiq görülüb.

Xalq yaradıcılığının, əsrlər boyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir. Sevindirici haldır ki, muxtar respublikada həyata keçirilən tədbirlər sayəsində belə sənət sahələri unudulmur, inkişaf etdirilir, sistemli şəkildə təbliğ olunur və gələcək nəslə çatdırılır.

**Sara ƏZİMOVA**

## Birgə konfrans keçirilib



Naxçıvan Dövlət Texniki Kollecində Naxçıvan Dövlət Universiteti ilə birgə "Naxçıvan Muxtar Respublikasında baytarlığın inkişafı" mövzusunda elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Məhəmməd Qəribov açaraq müstəqil Azərbaycanın sosial-iqtisadi tərəqqisi, muxtar respublikada aparılan aqrar islahatlar barədə danışıb. Qeyd olunub ki, bu sahədə ixtisaslı yerli kadr potensialının hazırlanmasında Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti, muxtar respublikadakı istehsal müəssisələri ilə əməkdaşlığın inkişafı, müştərək tədbirlərin keçirilməsi mühüm əhəmiyyətə malikdir.

Konfransda Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyevin universitetdə baytarlıq ixtisası üzrə bakalavr, magistratura və doktorantura təhsil pillələri üzrə elmi-pedaqoji kadr hazırlığının səviyyəsi, burada keçirilən beynəlxalq elmi konfranslar, regionda bu sahənin mütəxəssislərinə olan tələbat barədə məruzəsi dinlənilib. Bildirilib ki, universitetin baytarlıq ixtisasında təhsil alan tələbələr Türkiyə Respublikasının Qars Qafqaz, Ərzurum Atatürk, Van 100-cü İl, Fırat universitetlərində mütəmadi olaraq istehsalat təcrübəsi keçir, bu universitetlərdən dəvət olunan mütəxəssislərin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Elmi-Tədqiqat Baytarlıq Mərkəzində heyvanlar üzərində keçirilən cərrahi əməliyyatlarda iştirak edirlər.

Sonra universitetin magistratura üzrə dekanı, biologiya elmləri doktoru Etibar Məmmədovun, Baytarlıq kafedrasının müdiri, baytarlıq üzrə fəlsəfə doktoru Yunis Rüstəmlinin, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirovun, biologiya üzrə fəlsəfə doktoru, dosent Mirmahmud Seyidlinin, Naxçıvan Dövlət Texniki Kollecinin tədris işləri üzrə direktor müavini, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanovun çıxışları olub. Çıxışlarda baytarlığın inkişafının prioritet istiqamətlərindən, ekoloji təhlükəsizlik, əhalinin ərzaq təminatı və sağlam qida təminatından danışılıb, kadr çatışmazlığının aradan qaldırılması ilə bağlı təkliflər səsləndirilib.

**Mehriban SULTAN**


***İtmişdir***

Bənəniyarski Elzər Zakir oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 79, mənzil 44-də yaşayan Nəcəfova Ülviyyə Aydın qızının adına olan 12482 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Nemətli Lamiyə Fəxrəddin qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin əməkdaşları iş yoldaşları Seyfəddin Xəlilova və Rasim Həsənova, əzizləri
**ƏSGƏRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Naxçıvan Bölməsinin kollektivi Naxçıvan Dövlət Universitetinin prorektoru Araz Zalova, həyat yoldaşı
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı, fakültənin əməkdaşlarından Şəmil Mahmudov, Ələddin Tağıyev Araz Zalova, həyat yoldaşı
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Culfa Rayon Vergilər Şöbəsinin rəisi Nəcəf Allahverdiyev və şöbənin kollektivi Şərur Rayon Vergilər Şöbəsinin rəisi
**İSMAYIL FƏTULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi Əkrəm Hüseynzadəyə, əzizi
**İRŞADIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Dövlət Universitetinin Kimya kafedrasının müdiri Tofiq Əliyev və kafedranın əməkdaşları Araz Zalova, həyat yoldaşı
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İmamverdi, İsmayıl, Vahab və Turab Əliyev qardaşları Zalovlar ailəsinə, əzizləri
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı Qurban Qurbanlı və fakültənin əməkdaşları Araz Zalova, həyat yoldaşı
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanlığı Araz Zalova, həyat yoldaşı
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 243